# ƏZİZ ƏLİYEVİN XƏNCƏRİ MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN KOLLEKSİYASINDA

Tarix elmləri namizədi Səbuhi ƏHMƏDOV

## MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN SİLAH KOLLEKSİYASINDA GÖRKƏMLİ ŞƏXSLƏRƏ AİD SİLAHLAR

*Milli Azərbaycan Tarixi Muzeyinin eksponatlar toplusunun əhəmiyyətli hissəsini silah kolleksiyası təşkil edir. Muzey yaradıldıqdan sonra müxtəlif dövrlərə aid silahların tapılmasına böyük diqqət yetirilmişdir. Silah kolleksiyası indi də zənginləşdirilir. Silahlar muzey fondlarına bir neçə yolla daxil edilir: həm muzeyin və Elmlər Akademiyasının digər müvafiq təşkilatlarının respublika regionlarına təşkil etdikləri tarixi, etnoqrafik, arxeoloji ekspedisiyalar vasitəsilə, həm fərdi şəxslərdən alınma yolu ilə, həm də müxtəlif illərdə Daxili İşlər Xalq Komissarlığı və Daxili İşlər Nazirliyinin anbarlarından tarixi əhəmiyyətli silahların muzeyə verilməsi yolu ilə silahların sayı artırılır. XX əsrin 20-40-cı illərində Tiflisdəki Qafqaz hərbi-tarixi muzeyindən, həmçinin SSRİ-nin Moskva və Leninqrad şəhərlərindəki mərkəzi muzeylərindən Azərbaycana aid bəzi silahlar Bakıya gətirilmiş və sözügedən muzeyə təhvil verilmişdir. SSRİ Müdafiə Nazirliyinin anbarlarından vaxtı ötmüş bəzi silahlar da muzeyə təqdim edilmişdir.*



*ŞƏKİL 1.* Ə.ƏLİYEVƏ HƏDİYYƏ EDİLMİŞ XƏNCƏRİN ÜMUMİ GÖRÜNÜŞÜ

Muzeyin silah kolleksiyasında müxtəlif şəxslərə məxsus silahlar xüsusi maraq doğurur. Tarixi şəxsiyyətlərə aid silahlar sırasında Qarabağ xanlarına, Gəncə xanı Cavad xana məxsus XVIII-XIX əsr silahları, aktyorlar Sidqi Ruhulla və Aleksandr Tuqanovun, görkəmli Azərbaycan ziyalısı Mir Möhsün Nəvvabın silah kolleksiyaları, II Dünya müharibəsi iştirakçılarının silahları xüsusi yer tutur. (12, 457- 460)

Milli Azərbaycan Tarixi Muzeyinin silah kolleksiyasında Azərbaycanın görkəmli siyasi xadimi Əliyev Əziz Məmmədkərim oğluna məxsus xəncər nadir eksponatlardan sayılır. Muzeyin yeni tarix fondunda 2995-ci nömrə altında qorunan bu xəncər muzey tərəfindən 1978-ci ildə alınmışdır. Muzeyin inventar kitabında qeyd edilir ki, xəncər Əziz Əliyevə 1945-ci ildə

Böyük Vətən müharibəsində qələbə münasibətilə Dağıstan əhalisi tərəfindən hədiyyə olunmuşdur. (1) (şəkil 1)

### QAFQAZ XALQLARINDA SİLAHIN RƏMZİ MƏNASI. SİLAHIN HƏDİYYƏ VERİLMƏ ƏNƏNƏSİ

Qafqaz silahı öz xüsusiyyətləri ilə fərqlənir. Belə ki, Qafqaz xalqlarında silah hərbi ləvazimat, hərbi geyimin bir elementi olmaqla bərabər mürəkkəb təsəvvürləri özündə əks etdirən əşya sayılmışdır. Silahdan təkcə öz əsas təyinatına görə deyil, müxtəlif ayinlərin icrasmda, hətta rəqslərdə istifadə olunurdu. Dağlarda silah təkcə hərbi ləvazimatın bir hissəsi deyil, hücum və müdafiə vasitəsi, kişi davranışını təcəssüm etdirən bir nümunə və ümumiyyətlə, kişilik rəmzi hesab edilirdi. **Silahın itirilməsi insan üçün azadlığın itirilməsinə bərabər tutulurdu. Silah üzərində verilmiş söz andiçmə sayılırdı. Bu sözün pozulması ölümlə nəticələnməli idi.** Kişinin xarici görkəmində silah əsas rol oynadığına görə onu birinci növbədə gözəlləşdirirdilər. Əksər hallarda kişi nimdaş paltarda gəzir, lakin silahını qızıl, gümüş, daş-qaşlarla bəzəyirdi. Evin qonaq otağının ən dəyərli bəzəyi divarlardan asılmış silahlar sayılırdı. XX əsrin əvvəllərində Şimali Qafqaz və Cənubi Dağıstanda silah tədricən öz təyinatını itirir və xalq sənətkarlığının bir növü kimi rəmzi və dekorativ məna kəsb edən əşyaya çevrilir. Silah elə əşyalara aiddir ki, düzəldildiyi mühitdən kənara çıxandan sonra da onun qiyməti artır. Xalqın maddi-texniki inkişaf səviyyəsi ilə bərabər onun mənəvi təsəvvürlərini özündə əks etdirən əşya kimi silah müxtəlif cəmiyyət və dövrlərdə hörmətlə qarşılanmış və qorunmuşdur.

Hələ qədim dövrlərdə siyasi münasibətlərdə hədiyyə vacib rol oynayırdı. Dövlət başçılarının bir-birinə verdiyi hədiyyələr siyasi əlaqələrin yaranması və dərinləşməsinə xidmət göstərirdi. Daimi insan münasibətlərində hədiyyə universal əhəmiyyətə malik olmuşdu.

Hakimiyyət prinsiplərinin mürəkkəbləşməsi xüsusi hədiyyə kateqoriyasını meydana gətirmişdi - təbəələr hökmdara hədiyyə verirdilər. Hökmdar təbəələrdən hədiyyəni qəbul edir və onun müqabilində qayğı göstərirdi. Tədricən siyasi və insan münasibətlərində hədiyyənin əhəmiyyəti dəyişmişdir: rəhbərin hədiyyə qəbul etməsi həmin rəhbər tərəfindən hədiyyə verən regionun qayda, adət və mədəniyyətlərini qəbuletmə rəmzi sayılırdı. (9, 187 - 190)

Qədim dövrlərdən silah müqəddəs əşya kimi dini ayinlərdə rəmzi obyektlərdən biri idi. **Türk xalqları inanırdılar ki, döyüşçü həlak olanda döyüşçünün ruhunu özündə təcəssüm edən silah ölür. Bu səbəbə görə silah qəbirə qoyulanda sındırılmış vəziyyətdə qoyulurdu.** Qədim əsatirlərdə silah canlı varlıq kimi qəbul edilirdi. Bu isə ənənəvi mədəniyyətdə müxtəlif hərbi və məişət ayinlərinin yaranmasına səbəb olmuşdu. Ənənəvi olaraq silahlar hakimiyyət rəmzləri sayılırdı. Bütün deyilənlərə yekun olaraq belə nəticəyə gəlirik ki, silah mədəniyyətdə təkcə döyüş vasitəsi ol-

mamışdır. Silahın sosial funksiyaları zaman-zaman itsə də (**əsasən də öz müstəqilliyini və dövlətçiliyini itirmiş xalqlarda**), tarixi özünüdərkin bərpası ilə həmin funksiyalar qismən bərpa olunur. Məsələn, Azərbaycanda müasir dövrdə dədə-babalardan qalmış silahları divardan asmaq ənənəsi yaşamaqdadır.

Xalq mədəniyyətinin ayrılmaz hissəsi kimi silahın öz bədii xüsusiyyətlərindən başqa onun kimə məxsus olması da silahın tarixi qiymətini artırır.

### ƏZİZ ƏLİYEV: QISA BİOQRAFİYA

Əliyev Əziz Məmmədkərim oğlu 1897-ci ildə keçmiş İrəvan quberniyasının Hamamlı kəndində doğulmuşdur. 1917-ci ildə İrəvan Kişi Gimnaziyasını qızıl medalla bitirmiş və həmin il Petroqraddakı Hərbi-Tibb Akademiyasına daxil olmuşdur. İkinci kursun yay tətilini evlərində keçirmək üçün İrəvana gələn Ə.Əliyev burada daşnakların törətdikləri vəhşilikləri görərək ailəsini Şərura köçürə bilmiş və bir müddətdən sonra isə Şahtaxtı kəndinə aparmışdır. Təhsilini bitirməyə imkan olmasa da gənc tələbə əhaliyə tibbi xidmət göstərmişdir. (2,168) 1923-cü ildə Bakıya köçən Ə.Əliyev Azərbaycan SSR XKS-də iş icraçısı, ümumi şöbə müdirinin müavini və katibi vəzifələrində çalışmış, paralel olaraq Bakı Dövlət Universitetinin tibb fakültəsində oxumuşdur (5). Azərbaycan səhiyyə sahəsində tədqiqatlar aparan gənc alim tibb sahəsi üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. Azərbaycanda tibb elminin inkişafında, ali tibb təhsilinin təşəkkülündə, yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında müstəsna xidməti var. Onun 1934-cü ildə hazırladığı **"Klinik analizlər"** kitabı Azərbaycan dilində yazılmış ilk tibbi ali məktəb dərsliklərindən biridir. 1937-ci ildə həbs edilən Əziz Əliyev həbsdən sonra elmi fəaliyyətini davam etdirərək doktorluq dissertasiyasını yazmışdır. Bir müddət Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində çalışan Ə.Əliyev gənc olmasına baxmayaraq, bacarıqlı səhiyyə təşkilatçısı kimi özünü göstərmiş və siyasi işlərə cəlb olunmuşdur. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi olan Əziz Əliyev 1941-ci ili Azərbaycan KP MK-nin katibi vəzifəsində qarşılamışdır. (2, 169)

Əziz Əliyevin Cənubi Azərbaycandakı fəaliyyəti Azərbaycan və SSRİ tarixində xüsusi yer tutur.

1941-ci ilin mayından etibarən Əziz Əliyevin rəhbərliyi ilə Cənubi Azərbaycana göndəriləcək qrup təşkil edilməyə başlanmışdı. Qrupun fəaliyyəti barəsində tədqiqatçı Cəmil Həsənlinin **"Cənubi Azərbaycan: "Soyuq müharibə"nin başlanması"** kitabında ətraflı məlumat verilir. Qrup 52 briqadaya bölünmüşdü. Bu briqadalarda 82 partiya, 100 sovet işçisi, 200 nəfər təhlükəsizlik xidməti əməkdaşı, 400 milis, 70 prokurorluq nümayəndəsi, 90 məhkəmə əməkdaşı, 150 jurnalist və mətbəə işçisi, 245 dəmiryolçu, 42 geoloq var idi (19). 1941-ci il iyun ayının 22-də Almaniya SSRİ-yə hücum etmişdi və döyüşlərin qərb sərhədlərində aparılmasına baxma-

yaraq, gözlənilmədən Azərbaycan üçün təhlükə yaranmışdı: İranın şah rejiminin mülayim münasibətindən istifadə edərək alman xəfiyyələri Bakı mədənlərində təxribatlar törətmək, İran ərazisindən SSRİ-yə keçən yolları kəsmək **(xatırladaq ki, bu yollarla İngiltərə və ABŞ tərəfindən göndərilən hərbi köməyin SSRİ-yə çatdırılması nəzərdə tutulmuşdu)** kimi planları hazırlamağa başladılar. 1941-ci il avqustun 25-də sovet qoşunları İrana daxil olmuşdu, lakin Ə.Əliyevin qrupu ora göndərilməmişdi. Cənubi Azərbaycanda Stepan Emelyanovun və Gezalyanın rəhbərliyi ilə iki əməliyyatçı qrup fəaliyyət göstərməyə başlamışdı. Tədqiqatçı C.Həsənli tarixi faktlara əsaslanaraq sübut etmişdir ki, Gezalyanın qrupu Cənubi Azərbaycanın çox hissəsini, o cümlədən, Təbrizi Ermənistana birləşdirməyi təklif edərək gülünc bir səbəb göstərmişdi: "Çünki burada artıq erməni əməliyyatçıları işləyir". Azərbaycan əməliyyatçıları vasitəsilə bu barədə xəbər tutan Azərbaycan KP MK-nin birinci katibi Mir Cəfər Bağırov Stalinə ətraflı teleqramlar vurmuş, onunla şəxsən özü görüşmüşdür və sentyabrın 5-dən sonra Ə.Əliyevin qrupu Cənubi Azərbaycana göndərilmişdi. (19) (şəkil 2)



*ŞƏKİL 2.*
**ƏZİZ ƏLİYEV - 1941-ci İL**

Əməkdaşları yola salarkən M.C.Bağırov demişdir: **"Əgər bizdə bir damla azərbaycanlı qanı varsa, biz nə vaxtsa zorla parçalanmış xalqın birləşməsinə nail olmalıyıq".** Qeyd etmək lazımdır ki, Ə.Əliyevin "missiyası" bu məqsədə çatmaq üçün əlindən gələni etmişdi. Belə ki, Cənubi Azərbaycanda olan bütün alman müəssisələrinin malı müsadirə edilmiş və SSRİ-yə göndərilmişdi. Aclıq olan bölgələrə AzSSR-dən ərzaq və sənaye malları gətirilmiş, yerli təsərrüfatı bərpa etmək üçün tədbirlər görülmüşdü. Milli ruhu oyatmaq üçün Azərbaycan dilini yenidən xalqa qaytarmağın vacibliyini anlayan Ə.Əliyevin səyi ilə Azərbaycan dilində nəşr olunan **"Vətən uğrunda"** qəzeti bütün Cənubi Azərbaycanda yayılırdı. AzSSR-dən dəvət edilmiş teatr truppaları milli opera və musiqili komediyaları tamaşaya qoymuşdular. Azərbaycan dilinin təbliğində əhəmiyyətli addımlar atılmışdı. **Lakin siyasi hadisələrin gedişi göstərmişdi ki, Cənubi Azərbaycanda baş verənlər SSRİ rəhbərliyi üçün böyük siyasi oyunlarda bir kartdır.** Cənubi Azərbaycanı itirməyindən qorxan şah rejimi SSRİ və İngiltərənin tələbləri ilə razılaşmış və 1942-ci il yanvarın 29-da bu ölkələrlə Tehran müqaviləsi imzalayaraq antifaşist mübarizəsinə qoşulmuşdu. İranda olan alman xəfiyyələrinin bir qismi məhv edilmiş, digər qismi ölkəni tərk etmiş, yenilərinin gəlməsi işi əngəllənmişdi. Cənubi Azərbaycan məsələsini İrana siyasi təzyiq üçün istifadə edən SSRİ rəhbər-

liyi Əziz Əliyevin rəhbərlik etdiyi qrupu 1942-ci ilin mart ayının sonlarında geri çağırmışdı (19).

Əziz Əliyevin siyasi fəaliyyətinin Dağıstan dövrü (1942 - 1948-ci illər) Azərbaycan-Dağıstan əlaqələrinin şanlı səhifələrini təşkil edir.

1942-ci il iyulun 25-də alman qoşunları Şimali və Cənubi Qafqazı zəbt etmək məqsədilə **"Edelveys"** əməliyyatına başlamışdılar. Alman komandanlığı öz məqsədinə çatsaydı, faktiki surətdə müharibədə qalib gəlmiş olardı. Şimali Qafqazın tutulması Xəzər dənizi və Volqa çayından keçən lend-liz yolunun **(İngiltərə və ABŞ-dan SSRİ-yə hərbi yardım yolu)** kəsilməsi, Sovet Ordusunun Cənubdan bütünlüklə əhatələnməsi, Ural, Qazaxıstan və Orta Asiyaya gedən yolların itirilməsi demək idi. Cənubi Qafqazın itirilməsi SSRİ-nin yeganə və əsas neft bazası Bakının, SSRİ-nin yeganə molibden mədənlərinin, əhəmiyyətli ərzaq ehtiyatlarının, müalicə-reabilitasiya bazalarının yoxa çıxması, Xəzərin Şimal və Qərb sahillərinin, həmçinin İran, Türkiyə və Yaxın Şərqə gedən yolların Almaniyanın əlinə keçməsi demək idi. (17, 7-11) 1942-ci ilin 3 iyulundan 1943-cü ilin oktyabrına qədər gedən Qafqaz uğrunda döyüşlər öz miqyasına, mübarizənin sərtliyinə, döyüş əməliyyatlarımn uzanmasına, döyüş şəraitinin mürəkkəbliyinə görə II Dünya müharibəsi tarixində xüsusi yer tutur. İyul ayında Don çayını keçməklə alman qoşunları (167 min nəfər) Qafqaza soxulmuşdular. Onların 1130 tankına qarşı 100-dən artıq sovet tankı, 1000 təyyarəsinə qarşı 130 sovet təyyarəsi duruş gətirməli idi. Avqustun 12-dək almanlar marşal Semyon Budyonnının rəhbərlik etdiyi Şimali Qafqaz cəbhəsinin qoşunlarını məğlubiyyətə uğradaraq qarşılarında olan bütün sovet tanklarını məhv etmişdilər. 130 təyyarədən sovetlərdə cəmi 94 təyyarə qalmışdı. (18) Almanların dağ - atıcı hissələri Böyük Qafqazı aşaraq Suxumi istiqamətinə doğru irəliləməyə başlamışdılar, bu isə döyüşlərin Cənubi Qafqazda başlaması demək idi. (şəkil 3)



*ŞƏKİL 3.* **QAFQAZ DAĞLARINDA DÖYÜŞ**

SSRİ üçün Şimali Qafqazda ağır şəraitin yaranmasının səbəblərindən biri səhv milli siyasət idi. Hələ XX əsrin 20-ci illərindən etibarən regionda qurulmuş Sovet hakimiyyəti əvvəlki çar hökumətinin müstəmləkə siyasətini davam etdirir, bütün tədbirlər milli və dini xüsusiyyətlər nəzərə alınmadan həyata keçirilirdi. Sovetlərin yeritdiyi siyasətə qarşı yönələn ən kiçik etirazlar "banditizm" adlandırılaraq ən qəddar üsullarla yatırılırdı. 1939-cu il sentyabrın 1-də qəbul edilən "Ümumi hərbi mükəlləfiyyət haqqında Qanun"a əsasən 18 yaşına çatmış bütün sovet vətəndaşları hərbi xidmətə çağırılırdı. Tədqiqatçı A.Be-

zuqolnının araşdırmaları göstərir ki, Qafqazdan olan çağırışçıların əksəriyyəti Almaniya ilə həmsərhəd olan qərb hərbi dairələrinə göndərilirdi. (10,150) Milli hərbi hissələr, milli zabit kadrları da qərb sərhədində cəmləşdirilirdi (məsələn, 77-ci Azərbaycan dağ-atıcı diviziyası SSRİ-nin cənub sərhədinə gətirilmiş, bir çox azərbaycanlı zabitlər kimi tank qoşunları kapitanı Həzi Aslanov Belorusiyaya təyinat almışdı və s.). Nəticədə müharibənin ilk aylarında milli hissələr məğlub edilmiş, milli zabit kadrlarının əksəriyyəti həlak olmuş və ya əsir düşmüşdür. Orduya yeni çağırılanların əksəriyyəti nəinki hərbi işi, hətta rus dilini bilmirdilər. Bu, döyüş əməliyyatlarında özünü göstərmişdir. Bir çox hallarda hərbi rəhbərlik öz səhvlərini ört-basdır etmək üçün məğlubiyyəti milli diviziyaların qorxaqlığı, fərsizliyi ilə bağlayırdı. **396-cı Azərbaycan milli atıcı diviziyası Kerç-Feodosiya əməliyyatına aviasiya, artilleriya, tank dəstəyi olmadan döyüşə göndərilmiş, nəticədə 8 min döyüşçüdən 150 nəfər sağ qalmışdır.** İtkin və ya əsir düşmüş döyüşçülərin ailələri repressiyalara məruz qalırdı. Şovinist komandirlərin niyyətini anlayan bir çox qafqazlı döyüşçülər almanlar tərəfə keçirdilər. Antiazərbaycan qüvvələrinin səylərinə baxmayaraq, M.C.Bağırov İ.Stalini azərbaycanlıların sadiqliyinə inandıra bilmiş, yeni milli Azərbaycan diviziyalarının yaradılmasına, Azərbaycanda yeni hərbi məktəblərin açılmasına nail olmuşdur. (3; 4)



*ŞƏKİL 4.* **DAĞISTANLILARDAN İBARƏT MİLLİ DİVİZİYANIN FORMALAŞDIRILMASI**

Dağıstanda vəziyyət fəlakət dərəcəsinə çatmışdı. Hərbi hazırlığı olan və rus dili bilən dağıstanlı döyüşçülərin əksəriyyəti Ukrayna, Moldova və Belorusiyada gedən döyüşlərdə həlak olmuşdular. Tələsik yaradılmış Kabarda-Balkar süvari diviziyası və çeçen süvari alayı alman tanklarına qarşı göndərilmiş və təbii ki, darmadağın edilmişdilər. Tüfəng və qılıncla silahlanmış ən cəsur süvarinin də tankla açıq döyüşdə məğlub olacağını nəzərə almadan insanları ölümə göndərmiş general Maslennikov İ.Stalinə raportunda dağıstanlıları qorxaqlıqda ittiham etmişdir **(yeri gəlmişkən, qatı şovinistliyi ilə seçilən Maslennikov gürcü və erməni hərbi hissələrini də "qaralayır", ən çox şikayətləri isə azərbaycanlılara qarşı yazırdı)**. İ. Stalinin buna reaksiyası kəskin olmuşdur. Heç bir yoxlama aparılmadan Müdafiə Xalq Komissarı (MXK) 0585 saylı əmri (30 iyul 1942-ci il) imzalayır və bu əmrə əsasən Şimali Qafqaz dağlılarının orduya çağırışını qadağan edir. Avqustun 24-də Dağıstan əhalisinin orduya çağırışı qadağan edilmişdi. (10, 159) 1941-ci ildə Dağıstanda 54675 kişi ordu sıralarına ça-

ğırıla bilərdi (onlardan 16631 nəfər hərbi xidmətdə olmuşdur), lakin cəmi 3203 nəfər orduya çağırılmışdı, onlar da əsasən Dağıstan şəhərlərində yaşayan ruslar və ya müharibənin əvvəlində çağırılan dağlılar idi. (10, 151) (Şəkil 4)

Sovet repressiyalarının canlı simvolu olan L.P.Beriya dərhal Şimali Qafqaza göndərilmiş, Dərbənd, Mahaçqala, Nalçik şəhərlərində Daxili İşlər Xalq Komissarlıqlarının diviziyaları yerləşdirilmişdi. Hesablamalar göstərmişdi ki, Şimali Qafqaz və Dağıstanda 18 - 45 yaşlarında 95 min kişi vardır və onlar cəbhəyə çağırılmır, əksinə potensial düşmən kimi qəbul edilir. Nəticədə sovet qoşunları ilə yerli əhali arasında toqquşmalar baş vermiş, bir çox ucqar rayonlarda Sovet hakimiyyəti devrilmişdi. Ayrı-ayrı kəndlərin əhalisi köçürülmüşdü. Bu zaman kəndlərdən olan kişilərin cəbhədə hələ də vuruşması nəzərə alınmamışdı. Məsələn, təyyarəçi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Amet Xan Sultanın ailəsi bütünlüklə Sibirə sürgün edilmişdi. Ailələri ilə necə rəftar olunduğunu bilən bir çox döyüşçülər ya almanlar tərəfə keçir, ya da fərarilik edərək dağlarda sovetlərə qarşı vuruşmağa başlayırdılar. Almaniyada Əhməd Nəbi Maqomayevin rəhbərliyi ilə **"Şimali Qafqaz Milli Komitəsi"**nin yaradılması, alman ordusunda "Şimali Qafqaz milli legionunun" sovetlərə qarşı vuruşması İ.Stalini bütün Şimali Qafqaz əhalisinin köçürülməsi haqqında İ.Beriyanın təklifi ilə razılaşmağa vadar etmişdi. Köçürülmə Dağıstandan başlamalı idi. (13, 150-157)

1942-ci ilin sentyabr ayının əvvəllərində Dağıstanda L.Beriyanın göndərdiyi yoxlamalar əhalinin aclıq həddində yaşamasını müəyyən etmişdi, Dağıstan Vilayət Partiya Komitəsinin 1-ci katibi H.İ.Linkun isə heç bir tədbir görmürdü. Şimali-Qərbi Dağıstanda banditizm geniş vüsət almışdı.

Belə şəraitdə Mir Cəfər Bağırov Dağıstan Vilayət Partiya Komitəsinin 1-ci katibi vəzifəsinə Əziz Əliyevin təyin edilməsini təklif etmişdi. Qafqaz adət-ənənələrini yaxşı bilən, təşkilatçılıq qabiliyyəti olan, pedaqoji sahədə çalışmış, Qafqazda hər zaman hörmətlə qarşılanan peşə sahibi - həkim olan, qətiyyət və əqidəsi ilə seçilən Əziz Əliyev qısa zamanda vəziyyəti dəyişdirməyə qadir idi. 1942-ci il sentyabrın 16-da Dövlət Müdafiə Komitəsinin qərarı ilə Əziz Əliyev Dağıstan Vilayət Partiya Komitəsinin 1-ci katibi təyin edilmiş və Mahaçqala Müdafiə Komitəsinin sədri seçilmişdi. (5)

Ə.Əliyevin yeni vəzifədə ilk tədbiri yaranmış vəziyyətin səbəblərinin öyrənilməsinə yönəldilmişdi. Yoxlamalar göstərmişdir ki, hərbçilər icazə olmadan evlərdən ərzaq, mal-qara və əşyaları müsadirə edir, hərbi ehtiyac olmadan əhalinin evlərini dağıdırdılar. Müdafiə qurğularının tikintisinə cəlb olunan əhaliyə maaş və yemək-içmək verilmirdi. Belə işlərə çıxmaq istəməyənlərin ailələri girov götürülürdü. Banditizmə qarşı mübarizə adı ilə kütləvi şəkildə həbslər və qətllər törədilirdi. Bütün bunlara son qoyan Ə.Əliyev ətrafına yerli kadrları toplamağa çalışırdı. O, yerlərdə vəziyyətlə

tanış olaraq alman təbliğatına qarşı mübarizənin və vətənpərvərlik işinin gücləndirilməsini 1-ci dərəcəli vəzifə elan etmişdi. Nəticədə 1942-ci ilin sentyabr-noyabr aylarında Dağıstanda sovet pulları, təbliğat ədəbiyyatı və silahla təchiz edilmiş 42 alman paraşütçü agenti zərərsizləşdirilmişdir. Müharibənin sonunadək 160 agent ifşa edilmişdir. (11) Milli din xadimləri və ziyalılar təbliğata cəlb edilmişdir. Təsərrüfat sahəsində müsbət dəyişikliklər hesabına cəbhəyə ərzaq və müxtəlif malların göndərilməsinə başlanılmışdır. Müharibənin sonunadək Dağıstandan cəbhəyə 129,5 min ton taxıl, 48 min ton ət, 50 min ton yun, 1332 ton yağ və s. göndərilmişdi. (11)

Lakin Ə.Əliyev anlayırdı ki, İ.Stalində Dağıstan xalqları barəsində formalaşdırılmış fikri dəyişmək üçün bilavasitə hərbi sahəyə münasibətdə dönüş olmalıdır. Dağıstan və Şimali Qafqazdan dağlıları orduya aparmaq müharibənin sonunadək qadağan edilmişdi. Qadağadan yan keçmək üçün Ə.Əliyev könüllülərin toplanıb milli hərbi hissələr şəklində cəbhəyə göndərilməsinə nail olmuşdu. Təkcə 1942-ci ilin sentyabr-oktyabr aylarında aparılmış təbliğat işləri nəticəsində 4900 könüllü toplanmışdır. Milli zabitlərin rəhbərliyi altında milli hərbi hissələrdə vuruşan bu könüllülərin ilk uğurları geniş təbliğ olunurdu. Yaralılara, cəbhədə olan döyüşçülərin ailələrinə qayğı artırılmışdı.

Nəhayət, vəziyyəti birdəfəlik düzəltmək üçün Əziz Əliyev çox cəsarətli və çox riskli hərəkətə əl atmışdı. O, Sovet Ordusunun Səfərbərlik və Təşkilatçılıq Baş İdarəsinin rəisi Şadenkoya məktub yazaraq Dağıstan əhalisinin ordu sıralarına çağırılmamasını səhv addım kimi qiymətləndirmişdir. Belə qadağanın qoyulmasında bilavasitə İ.Stalinin rolunun olmasını bilərək məktubunda yazmışdır: "Qızıl Ordu sıralarına çağırışın qadağan edilməsi Dağıstan xalqlarının həyatında siyasi baxımdan zərərlidir və heç nə ilə yuyula bilməyən ləkədir". (10, 180) Faktiki olaraq, öz məktubu ilə Ə.Əliyev mərkəzi hakimiyyətin qərarına etiraz etmişdir və bu Stalin dövrü üçün çox nadir fakt sayılırdı. Məktub ya dağıstanlılardan ibarət diviziyaların toplanılmasına icazənin verilməsi, ya da məktubu imzalamış Ə.Əliyev və onun köməkçisi A.Daniyalovun repressiyalara məruz qalması ilə nəticələnməli idi.

Risk özünü doğrultmuşdu: məktubdan sonra bir neçə milli diviziyanın yaradılmasına icazə verilmiş, orduya çağırış bərpa edilməsə də, könüllülərin geniş şəkildə orduya cəlb olunmasına icazə verilmişdi. (şəkil 4)

1943-cü ilin yanvarında Dağıstanda könüllü olaraq orduya getmək istəyənlərin çağırış kampaniyası keçirilmişdi. Faktiki olaraq, bu, dağlıların sovet quruluşuna loyal münasibətlərini göstərmək üçün bir şans idi. 1943-cü ilin martınadək 8255 könüllü çağırılmış və onlardan 3,2 min nəfər rus dilini öyrənmişdi. Zaqafqaziya cəbhəsinin komandanının müavini general-leytenant Kurdyumov raportda qeyd edirdi: "Dağıstanda könüllülərin cəlb olunması Çeçen - İnquşetiyadan yaxşı keçirilir. Görünür ki, Dağıstan Vila-

yət Partiya Komitəsi bu məsələyə ciddi yanaşmışdır". (10,182) Zaqafqaziya cəbhəsi siyasi şöbəsinin rəis müavini polkovnik Antonov 5 fevral 1943-cü il raportunda qeyd edirdi: "Dağıstan Respublikasının partiya - sovet orqanları və respublika hərbi komissarlıqları könüllülərin çağırışı üzrə böyük iş görürlər. Könüllülər sırasında hərbi məktəblərə getmək istəyən çoxlu sayda şəxs var..."

1943-cü ildən etibarən alman təbliğatı da qafqazlılara təsir göstərmirdi və bunu alman hərbçiləri etiraf etməyə məcbur olmuşdular. (10,301) Ə.Əliyevin rəhbərliyi ilə görülmüş işlər öz bəhrəsini vermişdi. Artıq 1945-ci il iyulun 1-dək Sovet Ordusu sıralarına Dağıstandan 122.268 nəfər göndərilmişdi. Onlardan 1630 nəfəri zabit idi (10, cədvəl 45, 402). Döyüşlərdə 25 min dağıstanlı SSRİ-nin orden və medalları ilə təltif edilmişdir.

Müharibə qələbə ilə nəticələnəndə dağıstanlılar öz rəhbərlərinə inam və sədaqət rəmzi olan xəncər bağışladılar. Həmin xəncər indi Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasındadır (YTF № 2995). Əziz Əliyevin sayəsində dağıstanlılar bir çox digər xalqlar kimi sürgün olunmamış, öz dədə-baba torpaqlarında qalmışdılar. Təsadüfi deyil ki, Dağıstan Respublikasının prezidenti **Muxu Əliyev** 2007-ci ildə Dağıstanda Əziz Əliyevin 110 illik yubileyinə həsr edilmiş təbrikdə demişdir: **"Əziz Məmmədkərimoviçin adı Dağıstana xidmət göstərmiş parlaq siyasi və ictimai xadimlərin sırasında ən layiqli yerlərdən birini tutur".**

Müharibədən sonra iqtisadiyyatın mülki işlərə yönəldilməsi ilə məşğul olan Əziz Əliyevin ən böyük qayğılarından biri Dağıstanda milli rəhbər kadrların hazırlanması idi. XX əsrin 50-60-cı illərində Dağıstana rəhbərlik etmiş **Maqomed-Salam İlyas oğlu Umaxanov** öz xatirələrində yazırdı: "1946-cı ilin avqust ayında aviasiya hərbi hissəsinin komandiri vəzifəsində işləyəndə mən Mahaçqalaya məzuniyyətə gəldim. Vilayət partiya komitəsinin katibi A.Sultanəhmədovla görüşdüm. O, Əziz Məmmədkərimoviçin yanına getməyi məsləhət gördü və onu olduqca diqqətli, cəbhədən qayıdanlara qarşı çox həssaslıqla yanaşan bir insan kimi qiymətləndirdi. Mən onun yamna getdim. Əziz Məmmədkərimoviç məni hərarətlə qəbul etdi və çaya qonaq elədi. Əziz Məmmədkərimoviç mənim ordudakı xidmətimlə, ailə vəziyyətimlə, gələcək planlarımla maraqlandı. 1947-ci ilin sonunda HHQ komandanı mənə ehtiyata çıxmağı təklif etdi. Mən başa düşdüm ki, bu ÜKP(b) MK vasitəsilə Əziz Məmmədkərimoviç tərəfindən təşkil edilib". Beləliklə, yerli kadrların hazırlanmasına diqqət yetirən Əziz Əliyevin sayəsində M.Umaxanov partiya işinə cəlb edilmiş və uzun illər Dağıstana rəhbərlik etmişdir.

Əziz Əliyevin II Dünya müharibəsindən sonrakı fəaliyyəti də Azərbaycana sədaqətli xidmətin nümunəsidir. 1949-1950-ci illərdə Ümumittifaq Kommunist Partiyasının Mərkəzi Komitəsinin inspektoru vəzifəsində çalışan Əziz Əliyev Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini



*ŞƏKİL 5.*
**Ə.ƏLİYEV - 1950-ci İL**

təyin edilir və bu vəzifədə 1951-ci ilədək çalışır. Onun sürətlə yüksəlişi Azərbaycanda hansısa qüvvələrə xoş gəlmir və o, 1951-ci ildə gözlənilmədən vəzifədən kənarlaşdırılır, Azərbaycan Elmi Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru vəzifəsinə, 1956-cı ildə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsinə təyin edilir. (2,169) Buna baxmayaraq, işlədiyi bütün vəzifələrdə Əziz Əliyev xalqına, vətəninə sədaqətlə xidmət göstərmişdir. Onun elmi fəaliyyəti ana dilində tibb terminologiyasının və ali məktəb dərsliklərinin yaradılmasına, eksperimental nefrit zamanı qanda baş verən biokimyəvi dəyişikliklərə, allergiya problemlərinə və s. həsr edilmişdir. (şəkil 5)

1962-ci ildə Bakıda vəfat edən Əziz Əliyev Fəxri xiyabanda dəfn olunmuşdur.

**DAĞISTANDA SİLAH İSTEHSALI. DAĞISTAN XƏNCƏRLƏRİNİN NÖVLƏRİ**

Əziz Əliyevə hədiyyə edilmiş xəncərin hansı növə aid olmasını müəyyən etmək üçün Dağıstan xəncərlərinin növlərinə diqqət yetirək.

Şimali Qafqaz və Dağıstan həm sakinlərinin mədəni ənənə qədimliyi, həm də çoxmillətli əhalisi ilə seçilir. Dağıstanın əksər kəndlərində soyuq silah istehsal edilsə də, yalnız Kubaçi, Amuzqi, Qumuk silahqayırma mərkəzi hesab olunurdu.

XIX əsrdə Amuzqi və Kubaçi ustaları arasında əmək bölgüsü yaranmışdı: Amuzqi ustaları xəncər tiyələri düzəldir, Kubaçi ustaları dəstək, qın və onların bəzək elementlərini hazırlayırdılar. (14,16) XIX əsrin I yarısında silah üzərində olan irihəcmli naxışlar 1-2 texnoloji üsulla hazırlanırdı. XX əsrin sonlarında isə kiçikhəcmli naxışlar 3-4 material növündən istifadə etməklə 5-6 texnoloji üsulla hazırlanırdı (misal üçün, xəncər döymə, oyma, qarasavat üsulları ilə hazırlanır, qızıl və gümüş ornamentlərlə, rəngli məxmər parça ilə bəzədilirdi). (14,17-18) Silahın düzəldilməsi müxtəlif peşə sahiblərinin, bəzən ayrı-ayrı kənd ustalarının səy və bacarığının birləşdirilməsini tələb edirdi. Tiyənin düzəldilməsi, dəstək və qının ağac və sümük hissələrinin hazırlanması, gümüş elementlərinin düzəldilib silaha bərkidilməsi bir-birindən fərqlənən texniki əməliyyat olduğuna görə bir xəncər üzərində bir neçə usta işləyirdi. (15,12)

Dağıstan xəncərlərinin çoxsaylı növ və formaları mövcud idi. XIX əsrin sonları - XX əsrin əvvəllərində Dağıstan və Şimali Qafqazda bir neçə silah

istehsalı mərkəzi fəaliyyət göstərirdi: Vladiqafqaz (**Dağıstandan bura köçmüş ustalar əsasən kazak silahları düzəldirdilər**); Dərbənd (**şəhərdə silahqayıran ustaların sayı tədricən azalırdı, artıq 1917-ci ildə burada cəmi 3 silahsaz qalmışdı**), Petrovsk (**Dağıstan kəndlərindən bura köçmüş ustalar əsasən ordu zabitləri və kazaklar üçün silah düzəldirdilər, şəhərdə silahsazların sayı tədricən azalırdı - 1915-ci ildə cəmi 6 nəfər**); Samux və Kürə dairələrinin hər birində cəmi 1 silahsaz qalmışdı; Qunib, Avar, Andı dairələrində gümüşişləmə üzrə ustalar qalsa da 1915-ci ildə silahsazlar, demək olar ki, yox idi; Temir-xan Şura dairəsinin Verxneye Kazanişe kəndində əsasən sadə xəncərlər düzəldirdilər; Tərki, Qazi-Qumux, Kadar kəndlərində də silahsazlar tədricən bu sənəti atır, bəzək əşyaları, dekorativ məişət əşyaları, qab-qacaq düzəldilməsinə keçirdilər. Beləliklə, XX əsrin əvvəllərinə yalnız Amuzqi və Kubaçi kəndləri ən böyük silahqayırma mərkəz kimi qalmışdı, buradakı ustalar ənənəvi silahqayırma texnologiyasını davam etdirirdilər. (8,250-252)

**Qaytaq - Tabasaran** dairəsinə aid olan Amuzqi kəndində XIX əsrin sonlarında 50-yə yaxın təsərrüfat (ev) var idi ki, onların da hamısı xəncər tiyələri hazırlayırdı. (16,77) Y.Şillinq göstərir ki, xəncər tiyəsinin düzəldilməsi 13 mərhələdə başa çatır. Adi xəncər tiyəsi 2 gün, Dəməşq tiyəsi isə 6-8 gün ərzində hazırlanır. Qaytaq-Tabasaran dairəsinə aid olan Kubaçi kəndi hələ X əsrdən başlayaraq soyuq silah istehsalı mərkəzi kimi qeyd edilir. Kəndin adı orta əsr farsdilli mənbələrində Zirehgeran (**yəni "Zirehqayıranlar"**), türk dillərində Kubaçi (**halqalı zireh türk dillərində "kübə yaraq" termini ilə bildirilir**) şəklində göstərilirdi. XIX əsrin sonları - XX əsrin əvvəllərinə aid olan Kubaçi xəncəri olduqca bahalı idi: 60-100 rubla satılırdı. Belə xəncərin düzəldilməsinə 12-15 gün sərf olunurdu. 1862-ci ildə usta İbrahim Mehmed oğlunun London sərgisində nümayiş etdirilən xəncəri Kubaçi xəncərlərinin Avropada məşhurlaşmasının əsasını qoymuşdu.

XVIII-XX əsr xəncərləri öz forma və tərtibatına görə aşağıdakı qruplara bölünür: Kubaçi xəncərləri (**Kubaçi və Amuzqi ustaları**), Lak xəncərləri (**Nalçik və Vladiqafqaz üstaları**), Avar xəncərləri (**Verxneye Kazanişe və ətraf kəndlər**) (8,270-282)

### ƏZİZ ƏLİYEVƏ HƏDİYYƏ EDİLMİŞ XƏNCƏR

**Əziz Əliyevə məxsus xəncərin Kubaçi, Avar və Lak xəncər növləri ilə müqayisəsi göstərir ki, o, Kubaçi xəncəridir**. Kubaçi xəncərlərinin ayırd edilməsində onların naxışları əsas rol oynayır. Kubaçi ornamentlərini yüksək peşəkarlıq əsasında müxtəlif texniki üsul və vasitələrdən istifadəni tələb edən mürəkkəb, çoxşaxəli naxışlar fərqləndirir. (6, 42; 7,57- 65) Y.M.Şillinq Kubaçi ornamentində bu kompozisiyaları fərqləndirir: 1. **Tutta** ("budaq") - üzərinə simmetrik olaraq yarpaq və çiçəklər taxılmış budaq kompozisiyanın mərkəzini təşkil edir; 2. **Marxaray** ("cəngəllik") - bu

kompozisiyada bir və ya bir neçə mərkəzdən kənara yayılan spiralların arası yarpaq təsvirləri ilə doldurulur; 3. **Tamğa** ("möhür") - halqa, ellips, romb, kvadrat şəklində olan qapalı iri medalyondur. Medalyonun daxili tutta və marxaray kompozisiyaları ilə doldurula bilər; 4. **Kusat naxış** ("dama-dama naxış") - bu kompozisiyada ikiyarpaqlı elementlərdən yaradılan romblar öz növbəsində dama-dama həndəsi ornament təşkil edir; 5. **"Lum"** — yuxarıdakı ornamentlərin haşiyəsini təşkil edən zəncirvari yarpaqlardan ibarət naxışdır; 6. **Zoomorf üslub** — yarpaqlar arasında heyvan təsvirləridir. (16,107-111)



*ŞƏKİL 6.* **Ə.ƏLİYEVƏ HƏDİYYƏ EDİLMİŞ XƏNCƏRİN DƏSTƏK HİSSƏSİ**

Əziz Əliyevə bağışlanmış xəncərin yaxın analoqlarının axtarışı Sankt-Peterburq şəhərində uğurla nəticələnmişdir. Belə ki, 2007-ci ilin dekabr ayında Sankt-Peterburq şəhərində ezamiyyətdə olarkən biz **Rusiya Etnoqrafiya Muzeyində** (REM) analoji xəncərə rast gəldik. REM-in soyuq silahlar kataloqunda qeyd edilir ki, bu xəncər - qəmə XX əsrin əvvəllərində Dağıstanın Kubaçi kəndində düzəldilmiş, 1926-cı ildə Seyid Məhəmməd oğlu tərəfindən Kubaçidən alınmış və REM-ə bağışlanmışdır. (15,90) Xəncərin quruluşu, ölçüləri, düzəldilmə texnologiyası və materialları MATM-də qorunan xəncərlə eynidir. (şəkil 6)

Əziz Əliyevə hədiyyə edilmiş xəncərin ümumi uzunluğu 47,5 sm, tiyənin uzunluğu 33 sm-dir. Xəncər polad tiyə və onun üzərinə taxılmış polad dəstəkdən ibarətdir. Tiyə yuxarıdan aşağıya doğru tədricən daralan poladdan düzəldilmiş və onun ortasına iki yiv qoyulmuşdur. Yivlər arasında çox çətinliklə ərəb qrafikası ilə yazıların olması görsənir. Yazılara diqqətlə baxılanda aydın olur ki, sürtülərək tamamilə yiyildiyinə görə oxunmur. Dəstək qızılı və gümüşü simlər, qarasavatla bəzədilmiş, ortasına sümükdən lövhə taxılmışdır. Qının iç hissəsi nazik taxtadan düzəldilmiş, dəstəyə toxunan hissəsinə məxmər parça yapışdırılmışdır. Qının çöl tərəfi metaldandır, üzəri qızılı və gümüşü simlər, qarasavatla bəzədilmiş, ortasına sümükdən lövhə taxılmışdır. Qının aşağı ucu qoza şəkilli, zəngin bəzədilmiş əlavə elementlə tamamlanır. Qın və dəstək üzərində olan naxışlar xəncərin Kubaçi növünə aid olmasına şübhə yaratmır. Yazıların yeyilməsi belə ehtimal etməyə imkan verir ki, tiyə köhnə, dədə-babadan qalmış xəncərin tiyəsi olmuş və etibarlılığını itirməmişdir. Ənənəyə görə etibarlı tiyələr nəsildən-nəsilə keçirilir. Qın və dəstək dəyişilsə də belə tiyələr göz bəbəyi kimi qorunmuşdur. Müqayisəli təhlil göstərir ki, tiyə, ehtimal ki, XX əsrin 20-ci illərində düzəldilmişdir. Əziz Əliyev üçün hədiyyə hazırlananda bu tiyə seçilmiş, qın və dəstək isə yenidən, ehtimal ki, elə 40-cı illərin

sonlarında hazırlanmışdı. (şəkil 7 )

Bu gün Əziz Əliyevin adı Azərbaycan və Dağıstanın dost və qonşu münasibətlərini təsdiqləyən ideoloji rəmzə çevrilmişdir. Həmin münasibətlərin bariz nümunəsi eksponat şəklində Milli Azərbaycan Tarixi Muzeyində qorunur.

ƏDƏBİYYAT

1. Milli Azərbaycan Tarixi Muzeyi. Yeni tarix fondu, inventar kitabı № ...

2. Naxçıvan ensiklopediyası. c.1, səh. 168-169

3. Vəliyev İ.A. Azərbaycan milli atıcı diviziyaları Böyük Vətən müharibəsində. Bakı, 2005, səh. 220

4. Vəliyev İ.A. Unudulmuş 402. Bakı, 2004, səh. 296

5. Алиев В. Выдающийся сын азербайджанского народа // Наш век, №1 (396 ), 12 - 18 января 2007 года

6. Алиханов Р.А., Иванов А.А.. Искусство Кубачи. Ленинград,1976, стр. 230

7. Алиханов Р.А. Кубачинский орнамент. Москва, 1963, стр. 130

8. Асвацатурян Э.Г. Оружие народов Кавказа. Санкт-Петербург, 2004, стр. 432

9. Ахметжан К.С. Этнография традиционного вооружения казахов. Алматы, 2007, стр. 216

10. Безугольный А.Ю. Народы Кавказа и Красная Армия. 1918-1945 годы. Москва, 2007, стр. 512

11. Великая неизвестная война // Свободная Республика - № 30 (127) 26.07.2008

12. Джангирова С. Из истории формирования коллекции оружия Музея Истории Азербайджана. //Azərbaycan Tarixi Muzeyi - 2007. Məqalələr toplusu. Bakı - 2007, səh. 457-460

13. Дробязко С.И. Под знаменами врага. Антисоветские формирования в составе германских вооруженных сил. 1941- 1945. Москва, 2004, стр. 608

14. Кавказское оружие. ГИМ. Альбом. Москва, стр. 30

15. Холодное оружие в собрании Российского Этнографического Музея. Альбом. Санкт-Петербург, 2006, стр. 247

16. Шиллинг Е.М. Кубачинцы и их культура. Москва, 1949, стр. 277

17. Тике В. Марш на Кавказ. Битва за нефть. 1942/1943. Москва, 2005, стр.448

18. Интервью с А.Безугольным. Вести Северный Кавказ. ИНТЕРНЕТ səhifə skavkaz.rfn.ru

19. Нурани. "Южная эпопея" - слишком многое в ней осталось для нас неизвестным. İNTERNET səhifə karabakh-doc.aze-rall.info//ru//azer-people//

Сабухи АХМЕДОВ

## КИНЖАЛ АЗИЗА АЛИЕВА В КОЛЛЕКЦИИ НАЦИОНАЛЬНОГО МУЗЕЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

**РЕЗЮМЕ**

В коллекции Национального Музея Истории Азербайджана особое место занимают образцы оружия, принадлежавшие выдающимся государственным, политическим и культурным деятелям Азербайджана. Среди этих образцов имеется кинжал, принадлежавший Азизу Мамедкерим оглу Алиеву. Азиз Алиев занимает особое место в истории Азербайджана и Дагестана как известный ученый, организатор медицинского обслуживания населения, а также как политический деятель. В статье рассматриваются деятельность А.Алиева как врача и ученого и мероприятия, проведенные им в 1941 году в Южном Азербайджане. Подробно рассмотрена его деятельность во главе Дагестана в 1942-1948 годах, когда именно его усилиями была предотвращена насильственная депортация дагестанских народов, спланированная высшим руководством СССР. Благодарное население Дагестана подарило своему лидеру кинжал - традиционный символ мужества и чести. Не случайно, что до настоящего времени имя Азиза Алиева является символом дружбы азербайджанского и дагестанского народов.

В статье также рассматриваются технические особенности изготовления кинжала, доказано, что кинжал является выдающимся произведением искусства начала XX века.

Sabuhi AHMEDOV

## THE DAGGER OF AZIZ ALIYEV IN THE COLLECTION OF NATIONAL MUSEUM OF THE HISTORY OF AZERBAIJAN

**SUMMARY**

In the collection of National Museum of the History of Azerbaijan there are the samples belonging to the prominent statesmen, political and cultural fiqures of Azerbaijan occupy the special place. Among these samples there is the dagger belonging to Aziz Mamedkerim oqlu Aliyev. Aziz Aliyev has a special place in the history of Azerbaijan and Dagestan as the famous scientist, the organizer of the medical service of a population and also as political figure. In the article the activity of A.Aliyev as a doctor and scientist and the measures fulfilled by him in 1941 in the Southern Azerbaijan have been considered. This activity on the head of Dagestan in 1942-1948 when the forcible deportation of Dagestanian folks planned by the highest leadership of the USSR has been prevented namely by his efforts has been considered in detail. The grateful population of the Dagestan made a present to his leader the dagger, the traditional symbol of the courage and honour. It is not ocassionally that the name of Aziz Aliyev is the symbol of the friendship of Azerbaijanian and Dagestanian folks till a present.

In the article the technical pecularities of daggers manufacturing proving that this dagger is the prominent art production of the beginning of XX century and also have been considered.